Avropa Şurası

Avropa İnsan Hüquqları Konvensiyası

# HÜQUQ VƏ AZADLIQLAR PRAKTIKADA

*Pedaqoji vəsait*

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

*Hüquqlarımız, azadlıqlarımız*

# Müəllimlər üçün vəsait

*"İnsan hüquqları məfhumuna real və konkret mahiyyətin verilməsinin çox çətin olduğunu düşünürəm. Zənnimcə, onun həlli vətəndaş cəmiyyəti ideyasından asılıdır. [...] Əslində vətəndaş cəmiyyəti ictimai həyatda iştirak edən, öz hüquqlarını bilən və onların uğrunda mübarizə aparmağı bacaran vətəndaşlardan ibarətdir".*

Bronislav Geremek, Avropa Şurası, 2007*

İnsan hüquqları istər Avropada istərsə də dünyanın başqa nöqtələrində tez pozula bildikləri üçün sayıqlığı heç bir zaman əldən verməməliyik. İnsan hüquqları hər bir kəsin, xüsusilə də gənclərin işidir. Bu mesajın onlara çatdırılmasında müəllim aparıcı rol oynayır. İnsan hüquqlarına əsaslanan cəmiyyət qura bilmək üçün üçün gənclər bu hüquqlara məna verən mexanizmləri və xüsusən də Avropa Şurası üzv dövlətlərini əsas hüquq və azadlıqlara hörmət etməyə çağıran beynəlxalq müqavіləni, **Avropa İnsan Hüquqları Konvensiyasını (AİHK)**, bilməlidirlər.

Nəzəri və praktiki formatda tərtib edilmiş hər iki dərslik müəllimlərə şagirdlərinin insan hüquqları sahəsində maarifləndirilməsinə yardım edəcək dinamik vəsaitdir.

*Nəzəri* bölmədə Konvensiyadan və Avropa İnsan Hüquqları Məhkəməsinin işi barəsində sadə terminlərlə bəhs edilir. Burada həmçinin Avropa Şurasının fəaliyyət sahələri təqdim edilir. Hər biri Konvensiyanın müəyyən maddəsinə həsr edilmiş doqquz vərəq şagirdləri demokratik cəmiyyətdə təmin edilməli olan hüquqlar barəsində düşünməyə vadar edir.

*Praktiki* bölmədə isə insan hüquqları ilə bağlı müxtəlif təhlil, tədqiqat və müzakirə çalışmaları və fəaliyyətləri təqdim edilir. Sadələşdirilmiş «praktiki halla» şagirdlərə hüquqi məsələlərlə yaxından tanış olmağa və Məhkəmənin fəaliyyətini başa düşməyə imkan verəcək.

Bu pedaqoji vəsaitdə təqdim edilən məlumatlar gənclərə müəllimlərinin köməyi ilə Avropada insan hüquqları və əsas azadlıqlar ilə bağlı daha yaxşı praktiki biliklərə yiyələnməyə yardımçı olacaqdır.

*Bronislav Gemerek, Qitəni birləşdirməkdə Avropa Şurasının rolu. Avropa Şurası, Strasburq, 21 fevral 2007-ci il. **www.ena.lu** internet səhifəsindən əldə edilə bilər.

# Mündəricat

## AHİM-in tədrisi


1 İnsan hüquqları Avropa Şurasının diqqət mərkəzində

2 Konvensiyanın və Avropa İnsan Hüquqları Məhkəməsinin xüsusi qeyd edilməsi

3 Məhkəmə necə fəaliyyət göstərir?

4 Ərizələrə necə baxılır?

5 AHİK-nın sadələşdirilmiş versiyası

6 Konvensiyanın 2-ci və 3-cü maddələri

7 Konvensiyanın 4-cü və 5-ci maddələri

8 Konvensiyanın 8-ci və 9-cu maddələri

9 Konvensiyanın 10-cu və 11-ci maddələri

10 Konvensiyanın 14-cü maddəsi


## Praktiki çalışmalar


1 Ölkəm və AİHK

2 Konkret məsələ üzərində iş

3 Konkret məsələ üzərində iş

4 Konkret məsələ üzərində iş

5 Sınaq

6 AİHK-dan əlavə



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Avropa Şurası bu qəbildən olan yeganə təşkilatdır

Avropa Şurasının əsas məqsədləri:

- İnsan hüquqlarını, plüralist demokratiyanı və qanunun aliliyini müdafiə etmək;
- Avropanın mədəni kimliynə və müxtəlifliyinə dair maarifləndirməni və inkişafi təşviq etmək ;
- Avropa cəmiyyətinin üzləşdiyi aşağıdakı problemlərin birgə həllini tapmaq: milli azlıqlara qarşı ayrıseçkilik, ksenofobia, dözumsüzlük, bioetik və klonlama, terrorizm, insan alveri, mütəşəkkil cinayətkarlıq və korrupsiya, kibercinayətkarlıq, uşaqlara qarşı zorakılıq və s.
- Siyasi, qanunvericilik və konstitusional islahatları dəstəkləməklə Avropada demokratik sabitliyi möhkəmləndirmək

Bu məqsədlərə çatmaq üçün Avropa Şurasının aşağıdakı orqanları vardır:

- Nazirlər Komitəsi : üzv dövlətlərin xarici işlər nazirləri və ya onların Strasburqdakı daimi nümayəndələrindən ibarət rəhbər orqandır
- Parlament Assambleyası (AŞPA) : üzvləri milli parlamentlər tərəfindən təyin olunmuş məşvərətçi orqandır. 318 üzv və 318 əvəzedici üzvdən ibarətdir.
- Yerli və Regional Hakimiyyətlər Konqresi : yerli və regional hakimiyyətləri təmsil edən məşvərətçi orqandır
- Avropa İnsan Hüquqları Məhkəməsi : Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunan hüquqları öz yurisdiksiyası altındakı hər kəs üçün təmin etmək səlahiyyətinə malik olan məhkəmə orqanıdır.
- İnsan Hüquqları üzrə Komissar : üzv dövlətlərdə təhsilə və insan hüquqlarına hörmət edilməsinə dair maarifləndirməni təşviq edən rəsmi müstəqil orqandır.
- Beynəlxalq QHT-lərin Konfransı : Avropa Şurası iştirakçı statusu verdiyi 400 beynəlxalq qeyri-hökumət təşkilatı (QHT) ilə dialoqa açıqdır.
- Baş Katib: AŞPA tərəfindən beş il müddətə seçilən Baş Katib təşkilatın rəhbəridir. O, Avropa Şurasının iş proqramı və büdcəsinin strateji planlaşdırma və istiqamətinə görə məsuliyyət daşıyır və təşkilatın gündəlik idarəetməsinə nəzarət edir.
- Katiblik: 47 üzv dövləti təmsil edən 2000-dən çox çox əməkdaş Avropa Şurasının Strasburqdakı (Fransa) baş qərargahında və onun Avropadakı digər ofislərində fəaliyyət göstərir.

www.coe.int

İnsan hüquqları Avropa Şurasının diqqət mərkəzində

# Daha Böyük Avropa

## *Reykyavikdən Vladivostoka*

5 may 1949-cu il tarixində 10 dövlət tərəfindən təsis olunan Avropa Şurası baş qərargahı Strasburqda yerləşən beynəlxalq təşkilatdır.

Bu gün onun 800 milyon əhalini təmsil edən 47 üzv dövləti var:

Təsisçi üzvlər
(5 may 1949-cu il)

- Belçika
- Danimarka
- Fransa
- İrlandiya
- İtaliya
- Lüksemburq
- Norveç
- Hollandiya
- Birləşmiş Krallıq
- İsveç

Digər üzv dövlətlər
(qəbul tarixinə görə)

- Yunanıstan (1949)
- Türkiyə (1949)
- İslandiya (1950)
- Almaniya (1950)
- Avstriya (1956)
- Kipr (1961)
- İsverçrə (1963)
- Malta (1965)
- Portuqaliya (1976)
- İspaniya (1977)
- Lixtenşteyn (1978)
- San Marino (1988)
- Finlandiya (1989)
- Macarıstan (1990)
- Polşa (1991)
- Bolqarıstan (1992)
- Estoniya (1993)
- Litva (1993)
- Sloveniya (1993)
- Çex Respublikası (1993)
- Slovakiya (1993)
- Rumıniya (1993)
- Andorra (1994)
- Latviya (1995)
- Albaniya (1995)
- Moldova Respublikası (1995)
- Keçmiş Yuqoslaviya Respublikası Makedoniya (1995)
- Ukrayna (1995)
- Rusiya Federasiyası (1996)
- Xorvatiya (1996)
- Gürcüstan (1999)
- Ermənistan (2001)
- Azərbaycan (2001)
- Bosniya və Herzeqovina (2002)
- Serbiya (2003)
- Monako (2004)
- Monteneqro (2007)



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# AİHK nədir?

## *İnsan hüquqları və əsas azadlıqların təminatı*

***Bilirsinizmi?***

Avropa İnsan hüquqları Konvensiyası birbaşa 1948-ci ildə BMT-nin Baş Asambleyasında qəbul olunmuş Beynəlxalq İnsan Hüquqları Bəyənnaməsinə əsaslanır.

Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) 1950-ci ildə qəbul edilmiş və 1953-cü ildə qüvvəyə minmiş **beynəlxalq müqavilədir**. Bu, məqsədi insan hüquqlarının qorunması olan ilk Avropa Şurası konvensiyasıdır. Təşkilata girmək üçün dövlətlər bu konvensiyanı ratifikasiya etməlidirlər.

Konvensiya aşağıdakı hüquqları müdafiə edir:

- Yaşamaq, azadlıq və təhlükəsizlik
- Şəxsi və ailə həyatına hörmət
- Söz azadlığı
- Fikir, vicdan və din azadlığı
- Seçmək və seçilmək hüququ
- Mülki və cinayət işlərində ədalətli mühakimə olunmaq hüququ
- Mülkiyyət və əmlakdan maneəsiz istifadə hüququ

Eyni zamanda, aşağıdakıları qadağan edir:

- İşgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza
- Köləlik və məcburi əmək
- Əsassız və qeyri-qanuni həbs
- Konvensiyada təsbit olunan hüquq və azadlıqlardan qeyri-bərabər istifadə olunma
- Dövlətin öz vətəndaşlarını ərazisindən qovması və ya onlara həmin dövlətin ərazisinə daxil olmağa qadağa qoyması
- Ölüm cəzası
- Əcnəbi vətəndaşların ölkədən kollektiv şəkildə çıxarılması

***Beynəlxalq müqavilə***

Dövlətlər arasında münasibətlərin hüquqi tənzimlənməsini müəyyən edən sazişdir.

***Konvensiya***

Konvensiya iki və ya daha çox dövlət arasında mövcud olan hüquqi saazişdir. Konvensiyada təsbit olunanlara riayət etmək istədiklərini göstərmək üçün dövlətlər ilk növbədə onu imzalamağa dəvət olunurlar. Konvensiyanı tətbiq etməyə hazır olduqda isə onu ratifikasiya edə bilərlər. Yəni onun təsbit etdiyi dəyərləri və təlimatları öhdəlik kimi öz üzərlərinə götürürlər.

***Konvensiyanın protokolu***

Konvensiyaya əlavə protokol həmin konvensiyanın mətninə bir və ya daha çox hüquq əlavə edir, və ya onun müddəalarına düzəlişlər edir. Konvensiyaya əlavə hüquqlar daxil edən protokollar yalnız onu imzalayan və ratifikasiya edən dövlətlərin üzərinə öhdəlik qoyur. Bu günə qədər AİHK-ya 14 əlavə protokol qəbul olunmuşdur.

**www.human-rights-convention.org**

### Bilirsinizmi?

Avropa insan hüquqlarını müdafiə edən məhkəməyə malik olan yeganə qitə deyildir. İki başqa regional məhkəmə vardır: Amerika dövlətlər arası İnsan Hüquqları Məhkəməsi və İnsan və xalq hüquqları üzrə Afrika Məhkəməsi. 2008-ci ildə, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 60 illiyinə həsr edilmiş Strasburqdakı seminarda bu üç regional məhkəmə bir araya gəldi. Jan-Pol Kosta (Avropa İnsan Hüquqları Məhkəməsinin keçmiş sədri) öz çıxışında "İnsan hüquqlarının universallığını göstərmək üçün ən doğru yol hansıdır?" deyə söyləmişdir.

# Avropa İnsan Hüquqları Məhkəməsinin rolu

## *Demokratiya və qanunun aliliyinin təmin edilməsi*

1959-cu ildə təsis edilmiş Avropa İnsan Hüquqları Məhkəməsi razılığa gələn tərəfin yurisdiksiyasında olan hər kəsin Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş hüquqlarını təmin edən məhkəmə orqanıdır. Yeganə məhkəmə olaraq 1 noyabr 1998-ci il tarixindən etibarən mövcuddur və daimi olaraq Strasburqda (Fransa) yerləşir.

Məhkəmənin hakimlərinin sayı Konvensiyanın tərəfləri olan dövlətlərin sayı ilə eynidir. Bu hakimlər tam müstəqildirlər, öz ölkələrini təmsil etmirlər və Avropa Şurası Parlament Assambleyası tərəfindən səs vermə yolu ilə seçilirlər.

Mövcud olduğu 50 il dövründə Məhkəmə 10 000-dən artıq **qərar** çıxarmışdır. Bu qərarlar aidiyyatı olan dövlətlər üçün məcburidir və onlardan ərizəçilərin hüquqlarının pozulmasının nəticələrini aradan qaldırmağı, eyni zamanda, Nazirlər Komitəsinin nəzarəti altında müxtəlif sahələrdə qanunvericilikdə və praktikada dəyişikliklər etməyi tələb edir. Məhkəmənin presedent hüququ sayəsində Konvensiya yeni problemləri həll edən və Avropada hüququn aliliyini və demokratiyanı möhkəmləndirən dinamik və güclü alətə çevrilib.

Məhkəməyə təqdim olunan **ərizələrin** sayının əhəmiyyətli dərəcədə artması nəticəsində hal-hazırda bəzi islahatlar həyata keçirilməkdədir. Məhkəmənin səmərəliliyini təmin etmək üçün böyük islahat 2010-cu ilin iyununda başlamışdır.

***Qərar***

İşin mahiyyətinə və ya başqa sözlə desək, aktual şikayətə görə Avropa İnsan Hüquqları Məhkəməsi qərar verir. Qərar qarışdırılmamalıdır ...

***... Qərardad ilə***

Məhkəmənin qərarı şikayətin (ərizənin) qəbulu ilə bağlıdır. Məhkəmə bütün tələblərə riayət olunduğunu yoxladıqdan sonra qərar qəbul edir.

***Ərizə və ya iş***

Məhkəmə tərəfindən həll edilməli olan mübahisə.

***Şikayətlər***

Ərizənin səbəbləri. Məhkəmə ərizənin mahiyyətini yoxladığı zaman şikayətlərə baxılır.

***Qəbuledilməzlik***

Əsaslandırılmamış və ya kifayət qədər yaxşı əsaslandırılmamış işlər qəbuledilməz elan olunur və rədd edilir.



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

*Bilirsinizmi?*

Ərizəçilər ərizələrini Məhkəmənin iki rəsmi dilindən (ingilis və fransız) birində göndərmək məcbutiyyətində deyillər. Onlar bunu Konvensiyanı ratifikasiya etmiş dövlətlərin rəsmi dillərindən birində edə bilərlər. Dinləmələr Strasburqdakı İnsan Hüquqları Sarayında keçirilir. Onlar aidiyyatı palatanın və ya vəziyyətdən asılı olaraq Böyük Palatanın sədrinin qərarı ilə qapalı keçirilmədiyi zaman ictimaiyyətə açıqdır.

# Ərizənin göndərilməsi

## *Əsas şərtlər*

Məhkəməyə kim müraciət edə bilər?

Hüquqlarının pozulduğuna inanan fərdlər və ya dövlətlər məhkəməyə müraciət edə bilər. Beləliklə, Konvensiya ərizələri iki növə ayırır:

- şəxs, şəxslər qrupu və ya qeyri-hökumət təşkilatı tərəfindən bir və ya bir neçə dövlətə qarşı irəli sürülən fərdi şikayətlər;
- bir dövlətin başqa dövlətə qarşı qaldırdığı dövlətlərarası şikayətlər.

Məhkəmə yarandığı gündən bu yana qəbul edilən şikayətlərin demək olar ki, hamısı fərdi şəxslər tərəfindən edilmişdir.

Əsas şərtlər

İlk növbədə Məhkəmə ərizənin **qəbuledilənliyini** yoxlayır. Ərizənin məhkəmə tərəfindən qəbul olunması üçün Konvensiyada təsbit olunan bəzi şərtlərə əməl olunmalıdır. Məsələn, ərizəçi dövlətdaxili bütün hüquq müdafiə vasitələrini "tükətdiyini" sübut etməli (yəni bu o deməkdir ki, ölkənin ən yuxarı məhkəmə instansiyası onun ərizəsini rədd edib) və ölkə daxilində son qərarın qəbul edilməsindən altı ay sonrakı müddətdə öz ərizələrini göndərməlidirlər. Açıq-aşkar qəbuledilməz hesab olunan şikayətlər tək hakim tərəfindən baxılır.

Ərizə qəbul hesab edilərsə məhkəmə tərəfləri (ərizəçini və müvafiq dövləti) məsələni **dostcasına həll ilə** razılığa gəlməyə dəvət edir. Məsələn, mübahisəni bu yolla həll etmək barədə razılığa gəlindiyi zaman, adətən dövlət ərizəçiyə kompensasiya ödəyir və ərizə geri götürülür. Razılıq əldə olunmazsa, Məhkəmə şikayətə mahiyyəti üzrə Konvensiyanın pozulub pozulmamasına baxır.

***Ərizə/ərizəçi***

Konvensiya ərizələri iki növə ayırır: fərdi ərizələr (fərd və ya fərdlər qrupu, şirkətlər və QHT-lər tərəfindən göndərilə bilər) və dövlətlərarası ərizələr (bir dövlət tərəfindən digərinə qaşı).

***Qəbuledilənlik***

Ərizə müəyyən tələblərə cavab verməlidir (bütün daxili hüquqi müdafiə vasitələrinin tükənməsi, altı ay müddətində göndərilməsi, AİHK-da təsbit edilmiş hüquqların pozulması), cavab verməzsə şikayət baxılmadan qəbuledilməz elan ediləcək.

***Dostcasına həll***

Məhkəmə insan hüquqlarına hörmətin şikayətə baxmanın davam etdirilməsini tələb etmədiyi nəticəsinə gələrsə, bu iş üzrə icraatı dayandırır. Ərizəçi və dövlət mübahisəni bu yolla həll etmək barədə razılığa gələndə, adətən dövlət ərizəçiyə  müəyyən miqdar pul ödəyir.

***Bilirsinizmi?***

Hakimlər hər bir dövlətin təklif etdiyi üç namizədin olduğu siyahıdan Avropa Şurası Parlament Assambleyası tərəfindən seçilir. Onlar 9 illik olan və yenilənməyən müddətə seçilirlər.

***Böyük Palata***

Məhkəmənin 17 hakimdən ibarət olan genişləndirilmiş strukturudur. Böyük Palata apelyasiya işinə və ya ciddi insan hüquqları qaldıran məsələlərə baxa bilər.

***Əvəzin ədalətli ödənilməsi – Maddi zərər– Qeyri-maddi zərər***

Məhkəmə dövləti məhkum etdiyində və ərizəçiyə zərər dəydiyini gördüyündə əvəzin ədalətli ödənilməsini həyata keçirir, yəni ona dəymiş zərərləri kompensasiya etmək üçün müəyyən məbləğdə pul ödənilməsi hökmünü verir. Dəymiş zərər maddi (mülkiyyətin və ya gəlir mənbəyinin itirilməsi) və ya mənəvi (əziyyət, şəxsiyyətin ləyaqətinə toxunma, və s.) ola bilər.

# İşə necə baxılır?

## *İzahedici plan*

### Milli səviyyədə aparılan prosedurlar

**Mübahisənin yaranması**

**Milli məhkəmələrdə aparılan prosedurlar**
Ölkədaxili hüquq müdafiə vasitələrinin tükənməsi

**Ən yüksək milli məhkəmənin qərarı**

### Avropa İnsan Hüquqları Məhkəməsində aparılan prosedurlar

**Məhkəməyə ərizənin göndərilməsi**
Qəbuledilənlik meyarları

- Ölkədaxili hüquq müdafiə vasitələrinin tükənməsi
- Məhkəməyə şikayət ərizəsi göndərmək üçün 6 aylıq müddət (milli məhkəmənin son qərarından sonra)
- Avropa Konvensiyasına əsaslanan şikayətlər
- Konvensiyanın tərəfi olan dövlətə qarşı şikayətlər

**İlk analiz**

**Qəbuledilməzlik haqqında qərar**
= işə xitam verilir

Qəbuledilənliyin və mahiyyətinin araşdırılması

Qəbuledilənlik haqqında qərar

Pozuntunun olması ilə bağlı qərar

Pozuntunun olmaması ilə bağlı qərar

İşə yenidən baxılması ilə bağlı xahiş

**Xahiş qəbul edilmir**
= işə xitam verilir

Xahiş qəbul edilir
= Böyük Palataya göndərilir

Pozuntunun olması ilə bağlı son qərar

**Pozuntunun olmaması ilə bağlı qərar**
= işə xitam verilir

### Qərarın icrası

**İşin Nazirlər Komitəsinə göndərilməsi**

**Məhkum edilən dövlətin öhdəlikləri**

- Kompensasiyanın ödənilməsi (əvəzin ədalətli ödənilməsi)
- Ümumi tədbirlərin görülməsi (qanunvericiliyə dəyişikliklər...)
- Fərdi tədbirlərin görülməsi (restitusiya, prosedurun yenidən açılması...)

Nazirlər Komitəsi tərəfindən araşdırma

Qənaətbəxş icraat

Qənaətbəxş olmayan icraat

**Son qətnamə**
= işə xitam verilir



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

### Bilirsinizmi?

Məhkəmə qərarının icrası arzu edilən nəticələr əldə edilənə qədər Nazirlər Komitəsinin nəzarəti altında qalmağa davam edir. Nazirlər Komitəsi təşviq, yardım və ya lazım gələrsə təzyiq tətbiq edərək həll yolları axtarmaqda fəal iştirak edir. Komitə məhkəmə qərarının tam şəkildə icra olunduğunu düşündüyü zaman görülmüş tədbirləri detallı olaraq göstərən "Son Qətnamə"ni açıq şəkildə qəbul edir.

# Məhkəmə qərar verdikdən sonra nə baş verir?

## *Məhkəmə qərarlarının icrası və təsiri*

Məhkəmənin qərarları məcburi xarakter daşıyır: Konvensiyanın pozulması ortaya çıxdığı zaman aidiyyatı dövlət gələcəkdə buna bənzər Konvensiya pozuntularının baş verməməsi və zərərçəkənlə bağlı nəticələri aradan qaldırmaq üçün tədbirlər görərək qərarı icra etməyə məcburdur. Məhkəmə həmçinin dəymiş zərəri kompensasiya etmək üçün ərizəçiyə dövlət tərəfindən "əvəzin ədalətli ödənilməsi" şəklində müəyyən miqdar pul ödənilməsinə qərar verir. Bu tədbirlərə ərizəçinin həbsdə olması zamanı azadlığa buraxılması, övladı ilə təmasın yenidən qurulması, ona yaşayış icazəsinin verilməsi və s. kimi xüsusi tədbirlər də lazım ola bilər.

Məhkəmənin qərarlarının icrasına nəzarətə məsul olan Avropa Şurasının Nazirlər Komitəsi zəruri tədbirlərin müəyyən edilməsi və onların həyata keçirilməsi zamanı üzləşdikləri problemlərin həllini tapmaqda dövlətlərə yardım edir. Bundan əlavə, o, eyni vəziyyətdə olan ərizəçilər və digər şəxslər üçün görülən tədbirlərin səmərəliliyini qiymətləndirir.

### Məhkəmə qərarlarından sonra dövlətlər tərəfindən görülən tədbirlərdən misallar:

- Avstriya televiziya inhisarına son qoydu
- Belçika evsiz insanlar haqqında qanunda dəyişiklik etdi və nikahdan kənar doğulan uşaqlara qarşı ayrı-seçkiliyin qadağan olunmasına dair tədbirlər gördü
- Bolqarıstan əqidəsinə görə hərbi xidmətdən imtina edənlər üçün alternativ xidmət yaratdı
- Xorvatiya məhkəmə prosesinin uzunluğuna qarşı səmərəli müdafiə vasitələri təqdim etdi
- Çex Respublikası bankların iflası ilə bağlı yeni qanun qəbul etdi
- Danimarka həmkarlar ittifaqına məxsus olmama haqqında qanunu genişləndirdi
- Finlandiya uşaq qəyyumluğu və baş çəkmə hüququna dair qanunda dəyişikliklər etdi
- Fransa, İspaniya və Birləşmiş Krallıq telefon danışıqlarını dinləmə haqqında qanun qəbul etdi
- Almaniya şəxsi fotolarının nəşr edilməməsinə dair məşhurlara daha çox hüquq verdi
- Yunanıstan deportasiya qərarını gözləyən əcnəbilər üçün saxlama şəraitini təkmilləşdirdi
- Macarıstan təcridxanalarda müvəqqəti saxlanmanın uzadılmasına dair ədalətli qərar vermə prosesi qəbul etdi
- İrlandiya homoseksual aktları dekriminallaşdırdı
- İtaliya müdafiə vəkillərinin kasasiya məhkəməsi qarşısına çıxmasını məcburi etdi
- Latviya seçkilərə namizədlər üçün dil testi ayrı-seçkiliyini ləğv etdi
- Moldova Respublikası din azadlığını tanıdı
- Niderland ruhi xəstələrin həbsinə dair qanunvericilikdə dəyişikliklər etdi
- Polşa İkinci Dünya müharibəsində mülkiyyəti müsadirə edilmiş bəzi şəxslərə səmərəli kompensasiya sistemi tətbiq etdi
- Rumıniya məhkəmənin yekun qərarlarının ləğv edilməsinə imkan verən müddəaları ləğv etdi
- Rusiya Federasiyası Çernobıl qurbanlarının sosial rifahının təminatını təkmilləşdirdi
- Slovakiya Respublikası uşaqların yerləşdirilməsinə dair qanunvericiliyində dəyişikliklər etdi
- Sloveniya polis tərəfindən pis rəftarın qarşısının alınmasına dair addımlar atdı
- İsveç ictimai məhkəmə müddəalarına dəyişikliklər etdi
- İsveçrə cinayət məhkəmə sistemi və cinayət prosedurlarını yenidən nəzərdən keçirdi
- Türkiyə milli təhlükəsizlik məhkəmələrində hərbi hakimlərin iştirakını ləğv etdi
- Ukrayna diffamasiya haqqında qanununa dəyişikliklər etdi
- Birləşmiş Krallıq məktəblərdə fiziki cəzanı qadağan etdi

**Məhkəmə qərarlarından sonra dövlətlər tərəfindən qəbul edilmiş fərdi tədbirlərdən misallar:**

- Azərbaycanda qeyri-qanuni olaraq işdən qovulan şəxs işinə bərpa edildi
- Bosniya və Herzeqovinada şikayətçinin əmanəti özünə qaytarıldı
- Bolqarıstanda Baş Prokuror ədalətsiz hesab edilən məhkəmə işinə yenidən baxılmasını istədi
- Xorvatiyada dövlət hakimiyyət orqanları tərəfindən ərizəçinin götürülmüş pasportu özünə qaytarıldı
- Kiprdə ərizəçi seçkilərdə səs verə bildi
- Çex Respublikasında şikayətçinin dayandırılmış təqaüdü bərpa edildi
- Finlandiyada valideynlər seçdikləri və hakimiyyət orqanları tərəfindən rədd edilmiş adı oğullarına verə bildilər
- Gürcüstanda əsassız şəkildə saxlanılan şikayətçi azad edildi
- Almaniyada nikahdan kənar doğulan və anası tərəfindən atılan uşaq atası tərəfindən qəyyumluğa götürüldü
- Yunanıstanda ərizəçilər məktəb aça bildi
- Macarıstanda tarixçi məxfi sənədlərdən istifadəyə icazə aldı
- Latviyada yaşına uyğun olmayan şəraitdə saxlanılan ərizəçi (84 yaş) azad edildi
- Litvada ərizəçiyə məxsus müvafiq məlumatlar ölkədə yaşamağı qadağan edilən əcnəbilərin siyahısından çıxarıldı
- Moldova Respublikasında kilsə tanındı və qeydiyyata alındı
- Monteneqroda ərizəçinin mənzilini qeyri-qanuni mənimsəyən şəxs oradan çıxarıldı
- Polşada ərizəçinin böhtana görə olan məhkumluğu ləğv edildi
- Portuqaliyada ataya oğlunu bir daha görmək icazəsi verildi
- Rumıniyada milliləşdirilmiş əmlakın keçmiş sahibləri əmlaklarını geri almış və ya təzminatla təmin olundu
- Rusiya Federasiyası ərizəçiyə vətəndaşlıq verdi
- Slovakiya Respublikasında ərizəçi atalıq qərarından imtina edə bildi
- İsveçrədə anası tərəfindən götürülərək Mozambikdə gizli saxlanılan uşağını atası tapdı
- Türkiyədə buraxılan partiyanın üzvlərinə qoyulan siyasi fəaliyyət qadağası aradan qaldırıldı
- Birləşmiş Krallıqda ərizəçinin hərbi xidmət dövründə kimyəvi testə məruz qalması faktı qalması faktı qəbul edildi və nəticədə onun təqaüdü artırıldı

AHİK-nın sadələşdirilmiş versiyası

# Avropa İnsan Hüquqları Konvensiyası

## *Bəzi maddələrin və protokolların sadələşdirilmiş versiyası* *

**Preambulanın xülasəsi**

Avropa Şurasının üzvü olan hökumətlər insan hüquqları və əsas azadlıqlara əsaslanan sülh və daha böyük birlik naminə çalışırlar.

Bu Konvensiya vasitəsilə onlar Ümumdünya İnsan Hüquqları Bəyannaməsində əks olunan hüquqların bir çoxunun möhkəmləndirilməsi üçün ilk addımları atmağı qərara alırlar.

◆ Maddə 1 – İnsan hüquqlarına hörmət olunması öhdəliyi

Dövlətlər bu konvensiyada müəyyən olunmuş hüquqları hər kəs üçün təmin etməlidirlər.

◆ Maddə 2 – Yaşamaq hüququ

Sizin yaşamaq hüququnuz vardır

◆ Maddə 3 – İşgəncələrin qadağan olunması

Heç kəsin sizi incitmək və ya sizə işgəncə vermək hüququ yoxdur. Hətta həbsdə olan insanın ləyaqətinə hörmət olunmalıdır.

◆ Maddə 4 – Köləliyin və məcburi əməyin qadağan olunması

Sizə kölə kimi yanaşmaq və ya sizi məcburi əməyə məcbur etmək qadağandır.

◆ Maddə 5 – Azadlıq və toxunulmazlıq hüququ

Sizin azadlıq hüququnuz var.
Əgər sizi həb etsələr bunun səbəbini bilmək hüququnuz var.
Əgər sizi həbs etsələr məhkəmənin tezliklə keçirilməsi və ya məhkəməyə qədər azad edilmək hüququna maliksiniz.

◆ Maddə 6 – Ədalətli məhkəmə araşdırması hüququ

Sizin qərəzsiz və müstəqil hakim tərəfindən aparılan ədalətli məhkəmə prosesi hüququnuz var.

Sizi cinayət törətməkdə ittiham edərlərsə təqsiriniz qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilirsiniz. Müdafiəçinin xidmətini ödəmək üçün vəsaitiniz olmadıqda, dövlət tərəfindən ödənilən belə müdafiədən pulsuz istifadə etmək hüququnuz var.

◆ Maddə 7 – Qanunda nəzərdə tutulmamış cəzanın yolverilməzliyi

Törədildiyi zaman qanunla cinayət sayılmayan hər hansı hərəkətə görə cinayət törətməkdə təqsirli hesab edilə bilməzsiniz.

◆ Maddə 8 – Şəxsi həyata və ailə həyatına hörmət hüququ

Öz şəxsi və ailə həyatınıza, evinizə və yazışma sirrinizə hörmət hüququna maliksiniz.

◆ Maddə 9 – Fikir, vicdan və din azadlığı

Sizin fikir, vicdan və din azadlığı hüququnuz vardır. Evdə və başqaları ilə birlikdə etiqad etmək və istədiyinizdə dininizi dəyişmək hüququna sahibsiniz.

◆ Maddə 10 – Fikir ifadə etmək azadlığı

Fikirləşdiyinizi ifadə etmək və yazmaq, eləcə də başqalarından məlumat almaq və vermək hüququna maliksiniz.

Bu hüquq eyni zamanda mətbuat azadlığını da əhatə edir.

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

## AHİK-nın sadələşdirilmiş versiyası

◆ Maddə 11 – Yığıncaqlar və birləşmək azadlığı

Sizin dinc toplaşmaq azadlığınız və öz maraqlarınızı müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla, başqaları ilə birləşmək hüququnuz var.

◆ Maddə 12 – Nikah hüququ

Nikaha daxil olmaq və ailə qurmaq hüququna maliksiniz.

◆ Maddə 13 – Səmərəli hüquqi müdafiə vasitələri hüququ

Hüquqlarınız pozulduğu zaman məhkəmə və ya digər dövlət orqanlarına rəsmi şikayət ərizəsi verə bilərsiniz.

◆ Mqddə 14 – Ayrı-seçkiliyin qadağan olunması

Dərinizin rənginə, cinsinizə, dilinizə, siyasi və ya dini baxışlarınıza və ya milli və ya sosial mənşəyinizə baxmayaraq bu hüquqlara maliksiniz.

◆ Maddə 19-dan maddə 51-ə qədər

Bu maddələr Avropa İnsan Hüquqları Məhkəməsinin fəaliyyətini izah edir.

◆ Maddə 34 – Fərdi şikayətlər

Konvensiyada təsbit edilmiş hüquqlarınız üzv dövlətlərdən birində pozulduğu zaman ilk öncə səlahiyyətli milli daxili hüquqi müdafiə vasitələrinə müraciət edə bilərsiniz.

Daxili hüquqi müdafiə vasitələri tükəndikdə Strasburqda yerləşən Avropa İnsan Hüquqları Məhkəməsinə birbaşa müraciət edə bilərsiniz.

◆ Maddə 52 – Baş katibin sorğuları

Avropa Şurası Baş katibinin sorğusu əsasında hökumətlər Konvensiyanın təsbit etdiyi hüquqları milli qanunvericiliklə necə müdafiə etdikləri haqda izahat verməlidirlər.

**Konvensiyanın Protokolları**

◆ 1 saylı Protokol – Maddə 1. Mülkiyyətin müdafiəsi

Mülkiyyətə sahib olmaq və onlardan istifadə etmək hüququna maliksiniz.

◆ 1 saylı Protokol – Maddə 2. Təhsil hüququ

Məktəbə getmək hüququnuz var.

◆ 1 saylı Protokol – Maddə 3. Azad seçki hüququ

Gizli səsvermə yolu ilə ölkənizin hökumətini seçmək hüququnuz var.

◆ 4 saylı Protokol – Maddə 2. Hərəkət etmək azadlığı

Ölkə daxilində qanuni olaraq yaşayırsınızsa, istədiyiniz yerə getmək və istədiyiniz yerdə yaşamaq hüququnuz var.

◆ 6 saylı Protokol – Maddə 1. – Ölüm cəzasının ləğvi

Ölüm cəzası ləğv edilməlidir.

◆ 7 saylı Protokol – Maddə 2. Cinayət işlərinə dair hökmlərdən ikinci instansiyaya şikayət vermə hüququ

Cinayət törətməyə görə məhkum edilmişsinizsə, işə yuxarı məhkəmə instansiyasında yenidən baxılması hüququna maliksiniz.

◆ 7 saylı Protokol – Maddə 3. Məhkəmə səhvinə görə kompensasiya

Cinayət törətməyə görə məhkum olunmuşsunuzsa və təqsirsizliyiniz sonradan sübut olunubsa kompensasiya almaq hüququnuz var.

◆ 12 saylı Protokol – Maddə 1. Ayrı-seçkiliyə ümumi qadağa

Dərinizin rəngi, cinsiniz, diliniz, siyasi və dini baxışlarınız və ya mənşəniz kimi səbəblərə görə dövlət orqanları tərəfindən ayrı-seçkiliyə məruz qala bilməzsiniz.

**www.human-rights-convention.org**

*Bu sənəd Məhkəmənin Mətbuat və İctimai Əlaqələr Bölməsi və İnsan hüquqları və Hüquqi İşlər Müdirliyinin İnformasiya və Nəşrlərə Dəstək Bölməsi ilə birgə Avropa Şurası Kommunikasiya müdiriyyəti tərəfindən tərtib edilmişdir. Avropa İnsan Hüquqları Konvensiyasının bu sadələşdirilmiş versiyası yalnız tədris üçün nəzərdə tutulmuşdur: o, Beynəlxalq Amnistiya və başqaları tərəfindən tərtib edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin sadələşdirilmiş versiyası əsasında tərtib edilmişdir. Yeganə qanuni orijinal mətn ingilis və fransız dillərində olan İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya və onun əlavə protokollarıdır.

Maddə 2 – Yaşamaq hüququ

Maddə 2 hərkəsin yaşamaq hüqüqunu qoruyur. Bu, Avropa İnsan Hüquqları Konvensiyasının ən vacib maddələrindən biri hesab olunur. Çünki, yaşamaq hüququna malik olmadan Konvensiya tərəfindən müyyən olunmuş başqa hüquqlardan istifadə etmək qeyri-mümkündür.

Maddə 2 dövlətlər üzərinə bir sıra öhdəliklər qoyur:

- Həyatın məqsədli şəkildə (qəsdən) alınmasının dayandırılması öhdəliyi
- İnsan həyatının qorunması üçün zəruri addımları atmaq öhdəliyi. Bu isə, insanların başqalarına zərər verəcək əməllərinin qarşısını alacaq qanun və cinayət cəzalarının tətbiq edilməsini, ölüm səbəblərinin ətraflı araşdırılmasını tələb edir.

**Maddə 2:**

***Yaşamaq hüququna maliksiniz***

# Yaşamaq *hüququ*

## *PRAKTİKADA,* *yaşamaq hüququna daxildir…*

**… məhbusların müdafiəsi:** dövlətlər həbsxanalarda saxlanılan şəxslərin həyatını qorumaq üçün zəruri addımlar atmalıdır.

2006-cı ildə gedən *Renold Fransaya qarşı* məhkəmə işində Maddə 2-nin pozulduğu məhkəmə tərəfindən aşkarlanıb. Elen Renold öz şikayətində qardaşının həyatını qorumaq üçün Fransa hakimiyyət orqanlarının heç bir lazımı tədbiri görmədiyini bildirmişdi. Qeyd edək ki, barəsində həbs qəti imkan tədbiri görüldükdən sonra o, 2000-ci ilin iyul ayında Bois-d'Arcy həbsxanasının kamerasında özünü asaraq intihar edib. Bundan əlavə, Məhkəmə ciddi ruhi xəstəlikdən əziyyət çəkən və intihar etmək riski olan məhbusların saxlanma şəraitlərindən asılı olaraq xüsusi tədbirlərə ehtiyac duyduqlarını xatırlatdı.

**… ətraf mühitlə bağlı risklərə qarşı müdafiə:** dövlətlər fərdlərin sağlamlığını qorumaq və istənilən ətraf mühit təhlükəsinin qarşısını almaq məqsədilə zəruri addımlar atmalıdır.

2008-ci ildə *Məhkəmə Budayeva və başqaları Rusiyaya qarşı* olan işdə Maddə 2-nin pozulduğunu aşkar etdi. Altı ərizəçi Kabardin-Balkariya Respublikası (Rusiya) ərazisində olan və Elbrus dağına bitişik dağlıq ərazidə yerləşən Tırnıauz şəhərində yaşayırdılar. Bu ərazidə torpaq sürüşmələri 1937-ci ildən etibarən hər il, xüsusilə də yay dövründə, qeydə alınmaqdadır. 2000-ci ilin iyul ayında Tırnıauz şəhərini məhv etmiş irimiqyaslı torpaq sürüşməsi baş verdi. Ərizəçilərin əsas ittihamı sürüşmənin baş verəcəyi ehtimalının böyük olması haqda yerli əhalinin Rusiya hakimiyyət orqanları tərəfindən xəbərdar edilməməsi, evakuasiya və təcili yardım tədbirlərinin, fəlakətdən sonra isə məhkəmə istintaqının həyata keçirilməməsi oldu.

Konvensiyanın 3-cü Maddəsi qeyri-insani və ləyaqəti alçaldan rəftarı bütün hallarda, o cümlədən terrorizmə qarşı beynəlxalq mübarizə kontekstində, qadağan edir.

Dövlətlərin Maddə 3-ə zidd olan rəftarları cinayət olaraq qəbul edən qanunlar kimi digər önləyici tədbirləri görmək və hər hansı işgəncə və ya pis rəftar iddialarını əsaslı şəkildə araşdırmaq öhdəliyi vardır.

İşgəncədən müdafiə hamı tərəfindən tanınmış prinsipdir və beynəlxalq hüquq çərçivəsində müzakirə mövzusu deyildir. Bu sahədə Birləşmiş Millətlər və Avropa Şurası (İşgəncələrin qarşısının alınması üzrə Avropa Konvensiyası və İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya) tərəfindən irəli sürülmüş konvensiyalar mövcuddur.

**Maddə 3:**

***Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.***

# İşgəncələrin qadağan olunması

## *PRAKTİKADA, işgəncələrin qadağan olunması tətbiq olunur...*

**... dindirmə zamanı polisin kobud rəftarı:** Hüquq-mühafizə orqanları tərəfindən istifadə olunan istintaq üsulları Maddə 3 ilə təmin edilən hüquqlara uyğun olmalıdır.

2007-ci ildə, *Məmmədov Azərbaycana qarşı* məhkəmə işində Məhkəmə Madda 3-ün pozulduğunu aşkar etmişdir. 2003-cü il oktyabrın 18-də Azərbaycan Demokrat Partiyasının (2003-ci ilin oktyabr ayında keçirilmiş prezident seçkilərini qeyri-legitim hesab edən müxalif partiyalardan biri) sədri Sərdar Cəlaloğlu Məmmədov həbs edilib polis bölməsinə aparıldı. Məhkəmə Məmmədova polis bölməsində işgəncə verildiyini və aidiyyatı orqanların ərizəçinin bu işgəncə ilə bağlı iddialarını effektiv şəkildə araşdırmadığını hesab etmişdir.

**... ekstradisiya və deportasiya:** Məhkəmə bir şəxsin başqa bir ölkəyə ekstradisiyası və ya deportasiyasının onun üçün pis rəftarla üzləşmək təhlükəsini artırdığında Maddə 3-ün pozulduğunu qeyd edə bilər.

2008-ci ildə Məhkəmə *Saadi İtalyaya qaşı* məhkəmə işində Maddə 3-ün pozulduğunu aşkar etmişdir. Bu iş Nassim Saadinin Tunisə ehtimal olunan deportasiyası ilə bağlı idi. Belə ki, 2005-ci ildə ölkədə olmadığı zaman yerli məhkəmə onu dinc dövrdə xaricdə fəaliyyət gostərən terrorist təşkilatına üzvlük və terrorizmə təhriklə ittiham edərək barəsində 20 illik həbs cəzasi vermişdir. Məhkəmə ərizəçinin Tunisə deportasiya qərarının həyata keçiriləcəyi təqdirdə Maddə 3-ün pozulacağını bildirmişdir.

Konvensiyanın 4-cü Maddəsi köləliyi, əsarəti və məcburi və ya icbari əməyi qadağan edir. Bu maddə eyni zamanda insan alverinə də tətbiq edilir.

Dövlətlərdən bu cür hərəkətlərə qarşı praktiki və səmərəli müdafiəni təmin edən qanunvericiliyin olması tələb olunur.

**Maddə 4:**

***Sizi köləlikdə saxlamaq və ya məcburi əməyə məcbur etmək qadağandır.***

# *Köləliyin* və məcburi əməyin *qadağan olunması*

## *PRAKTİKADA,*
### *köləliyin və məcburi əməyin qadağan olunmasına daxildir…*

**… ev işçilərinin müdafiəsi:** dövlətlər insanları ev köləliyindən müdafiə etmək üçün zəruri addımlar atmalıdırlar.

2005-ci ildə Məhkəmə *Siliadin Fransaya qarşı* işində Maddə 4-ün pozulduğunu qeyd etmişdir. Siva–Akofa Siliadin fransa cinayət hüququnun onu ev köləsi vəziyyətinə salan "məcburi və icbari" əməyə qarşı müdafiə etməkdə kifayət qədər səmərəli olmadığından şikayət etmişdir. Məhkəmə Fransanın o zaman qüvvədə olan cinayət qanununun ərizəci qadının qurbanı olduğu fəaliyyətə qarşı mudafiəsini səmərəli və konkret şəkildə təmin etmədiyini hesab etmişdir.

**…insan alverinə qarşı fəaliyyət:** 2010-cu ilin yanvarında Məhkəmə *Ranstsev Kipr və Rusiyaya qarşı* işində Maddə 4-ün pozulduğunu və Rusya və Kipr hakimiyyət orqanlarının 20 yaşlı rusyalı kabare artisti olan gənc qızı insan alverindən qoruya bilmədiklərini qeyd etmişdir. Bu, insan alveri ilə bağlı Məhkəmənin ilk qərarı idi.

Konvensiyanın 5-ci Maddəsi həbsin qanuni olub-olmamasını yoxlamaq üçün vasitələr təklif edir və beləcə əsassız həbs etmə və ilkin saxlanmaya qarşı insanları müdafiə edir.

Dövlətlərdən saxlanılan şəxslərə bir sıra prosessual təminatlar vermək tələb olunur. Həbs edilən hər bir şəxsə həbsinin səbəbləri açıqlanmalı və təcili mühakimə edilməli və ya məhkəməyə qədər azad edilməlidir. Bundan əlavə, Maddə 5 ilə təmin edilən hüquqlara zidd şəkildə ilkin saxlanılan və ya həbs edilən şəxs kompensasiya hüququna malikdir.

**Maddə 5:**

***Həbs edilərkən, səbəbin bilmək hüququnuz var Həbsə alındığınız zaman dərhal mühakimə edilmək və ya məhkəməyə qədər azad edilmək hüququna maliksiniz.***

# *Azadlıq* və *toxunulmazlıq* hüququ

## *PRAKTİKADA,*
### *azadlıq və təhlükəsizlik hüququ tətbiq edilir, məsələn…*

**… qanunsuz həbs:** Konvensiya hər bir kəsi özbaşına və ya qanunsuz həbs olunmaqdan müdafiə edir.

2004-cü ildə Məhkəmə *Frommelt Lixtenşteynə qarşı* işində Maddə 5-in pozulduğunu qeyd etmişdir. Piter Frommelt mənimsəmə və saxtakarlığa görə cinayətdə şübhəli bilinib 1997-ci ildə ibtidai həbsdə saxlanılıb. O, ona qarşı verilən həbs qəti imkan qərarında prosessual çatışmazlıqların olduğunu iddia edir.

**… qanunsuz həbs:** 2004-cü ilin aprelində Məhkəmə *Assanidze Gürcüstana qarşı* işdə Maddə 5-in pozulduğunu qeyd etmişdir. Tengiz Assanidze Batuminin keçmiş meri və Acariya Muxtar Respublikasının Ali Şurasının üzvü idi. Ərizəçi Gürcüstan Ali Məhkəməsinin 2001-ci ildə azadlığa buraxılma qərarından sonra üç ildən çox həbsdə saxlanıldı. Məhkəmə ərizəçinin əsassız şəkildə həbsdə saxlanıldığını və Gürcüstan dövlətinin onu ən qısa zamanda azadlığa buraxmasını söylədi. Bu, Məhkəmənin bir dövlətə ərizəçini ən qısa zamanda azadlığa buraxmağa əmr edən ilk qərarı idi.



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Konvensiyanın 8-ci maddəsi şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət etmək hüququnu müdafiə edir.

Dövlət fərdlərin şəxsi həyatına müdaxilə edə bilməz. Eyni zamanda, mənəvi və fiziki toxunulmazlığını müdafiə etmək öhdəliyi var.

Avropa İnsan Hüquqları Məhkəməsi "şəxsi və ailə həyatı"nın müdafisəini geniş şərh edərək əcnəbilərin deportasiyasını, özəl və qarşılıqlı homoseksual aktların qadağan olunmasını, məhkumlara ailə üzvlərinin dəfnində iştirak etməyə dövlət tərəfindən icazə verilməməsini, anadan ölü doğulan uşaqlara atalıq haqqının tanınmasının rədd edilməsini 8-ci maddənin pozulması kimi qiymətləndirir.

# Şəxsi həyata və ailə həyatına hörmət hüququ

**Maddə 8:**

***Siz öz şəxsi və ailə həyatınıza, evinizə və yazışma sirrinizə hörmət hüququna maliksiniz.***

## *PRAKTİKADA,*

### *şəxsi və ailə həyatına hörmət hüququ tətbiq edilir, məsələn....*

**... nəşrlər şəxsi həyat hüququnu pozub:** tanınmış şəxsiyyətlər və kral ailəsinin üzvləri şəxsi həyatlarının kütləvi informasiya vasitələrinin müdaxiləsindən müdafiə etmək üçün Maddə 8-ə istinad edirlər.

2004-cü ildə Məhkəmə *von Hannover Almaniyaya qarşı* işində Maddə 8-in pozulduğun qeyd etmişdir. Şahzadə Karolin von Hannover 1990-cı illərdə alman jurnallarında çıxmış fotoların bir daha nəşr edilməsini onun şəxsi həyatının və imicinin müdafiə hüququnu pozacağını göstərərək qadağan etmək üçün dəfələrlə alman məhkəmələrinə müraciət etməsinə baxmayaraq müvəffəqiyyətsizliyə uğradı. Məhkəmə hamı kimi insanlar tərəfindən tanınan şəxslərin də şəxsi həyatının qorunması və ona hörmət edilməsi üçün "legitim gozləntilərə" malik olmalarını qeyd etmişdir.

**... boşanmadan sonra uşaq üzərində qəyyumluq:** dövlətlər valideynlər və uşaqlar arasında sıx münasibətləri təmin etmək üçün məhkəmə qərarlarının möhkəmləndirilməsi istiqamətində zəruri addımlar atmalıdır.

2006-cı ildə Məhkəmə *Bajrami Albaniyaya qarşı* işində Maddə 8-in pozulduğunu qeyd etmişdir. Agim Bajrami keçmiş həyat yoldaşının boşandıqdan sonra Yunanıstana apardığı qızının onda qalması ilə bağlı məhkəmə qərarını yerinə yetirə bilmədiyindən şikayət etdi. Konvensiyanın dövlətləri ölkə məhkəməsinin valideyn və övladları birləşdirmək üçün verdiyi son qərarı yerinə yetirmək məqsədilə bütün lazımi tədbirləri görməsinə məcbur etdiyini xatırladaraq Məhkəmə ailə həyatına hörmət hüququnun pozulduğunu qeyd etdi.

Maddə 9 hər kəsin fikir, vicdan və din azadlığını müdafiə edir. Bu hüquqlar, eləcə də dinini və əqidəsini dəyişmək hüququ, toxunulmazdır. Bütün tanınmış etiqad sistemi Maddə 9 ilə müdafiə edilir.

**Maddə 9:**

***Fikir, vicdan və din azadlığı hüququna maliksiniz.***

# Fikir, vicdan və din azadlığı

## *PRAKTİKADA,*

### *fikir, vicdan və din azadlığına daxildir....*

**... öz dininə azad şəkildə ibadət etmək hüququ:** dövlətlər Maddə 9 ilə müdafiə olunan bu hüququ dəstəkləməlidir.

1993-cü ildə, Məhkəmə *Kokkinakis Yunanıstana qarşı* işində Maddə 9-un pozulduğunu qeyd etmişdir. Yehova Şahidi olan Minos Kokkinakis prozelitizmə görə 60 dəfədən çox həbs edilmişdir.

**... dövlət neytrallığı:** dövlət hər hansı dini icmanın daxili işlərinə müdaxilə etməməlidir.

2000-ci ildə, Məhkəmə *Hasan və Çauş Bolqariyaya qarşı* işində Maddə 9-un pozulduğunu qeyd etmişdir. Bolqarıstan musəlmanlarının keçmiş baş müftisi və Quran muəllimi olan ərizəçilər müsəlman icmasının rəhbərliyinin və nizamnaməsinin dəyişdirilməsi ilə bağlı Bolqarıstan dövlət orqanlarının qərarından şikayət etmişdir. Məhkəmə müsəlman icmasının daxili təşkilatçılıq işlərinə və ərizəcinin din azadlığı hüququna mudaxilə olunduğunu qeyd etmişdir.

Maddə 10:

***Fikrinizi məsuliyyətli şəkildə və yazmaq, eləcə də, başqalarından informasiya almaq və ya vermək azadlığına maliksiniz. Bura mətbuat azadlığı da daxildir.***

Konvensiyanın 10-cu Maddəsi demokratik cəmiyyətin mühüm dayaqlarından olan söz azadlığını müdafiə edir. Söz azadlığının qorunmasında əsas rol oynayan media xüsusi müdafiə tələb edir.

Bu maddə tənqid etmək, fərziyyələr və dəyər mühakimələri etmək, eləcə də fikri olmaq hüquqlarını müdafiə edir.

# Söz azadlığı

## *PRAKTİKADA,*
### *söz azadlığına daxildir....*

**... mətbuat və yayım media azadlığı:** Azad və müxtəlif mətbuat olmadan demokratik cəmiyyət ola bilməz. Maddə 10 ilə təmin olunan söz azadlığı dövlət və ya əhalinin hər hansı təbəqəsində şok, təhqir və narahatlıq hissləri doğuran məlumat və fikirlərə da tətbiq edilir. Dövlətlərin bu hüququ müdafiə etmək öhdəliyi var.

2008-ci ildə Məhkəmə *Lopes Qomes da Silva Portuqaliyaya qarşı* işində Maddə 10-un pozulduğunu qeyd etmişdir. Ö dövrdə gündəlik *Publico* qəzetinin meneceri olan Viçente Xorxe Lopes Qomes dq Silva böhtana görə məhkum edilmişdi. Məhkəmə söz azadlığının mətbuat üçün xüsusi əhəmiyyət kəsb etdiyini və ictimai fəaliyyət göstərən şəxs qismində çıxış edən siyasətci ilə bağlı qəbul edilə bilən tənqidi yanaşmanın sərhəddinin daha geniş olduğunuxususilə qeyd etmişdir

Bunun əksinə olaraq, 2009-cu ildə *Times Newspapers Ltd Birləşmiş Krallığa qarşı* (N° 1 və 2) işində Məhkəmə internetdə böhtan xarakterli arxivləşdirilmiş məqalələrin nəşrinə görə qəzeti mühakimə etmənin Konvensiyaya qarşı olmadığını bildirdi.

**... məmurların söz azadlığı:** Konvensiya məmurların vəzifə borcunu nəzərə alaraq və müstəsna hallarda onları söz azadlıqlarının məhdudlaşdırılmasına qarşı mudafiə edir.

1995-ci ildə Məhkəmə *Vogt Almaniyaya qarşı* işində Maddə 10-un pozulduğunu qeyd etmişdir. Ərizəçi Alman Kommunist Partiyasının üzvü kimi siyasi fəaliyyətinə görə dövlət qulluğundan azad edilməsinin onun söz azadlığını pozduğunu söyləyir. Məhkəmə ərizəcinin işdən azad edilməsinin qeyri-proporsional cəza olduğuna qərar verdi.

Maddə 11 hər kəsin  toplaşmaq və dinc mitinqlərdə və nümayişlərdə iştirak etmək, öz hüquqlarını müdafiə edən ictimai birliklər və həmkarlar ittifaqı yaratmaq və onlara qoşulmaq  hüquqlarını müdafiə edir.

Dövlətlər qanuni dinc nümayişlərin müdafiə etmək üçün müvafiq tədbirlər görmək öhdəliyinə malikdir. İctimai yerlərdə yollarda dinc nümayişləri tənzimləyən qaydalar vətəndaşları dinc toplaşmaq azadlığı hüququnu icra etməkdən daşındırmamalıdır.

**Maddə 11 :**

***Sizin dinc toplaşmaq azadlığınız və öz maraqlarınızı müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla, başqaları ilə birləşmək azadlığı hüququnuz vardır.***

# Yığıncaqlar və *birləşmək azadlığı*

## *PRAKTİKADA,*
## *toplaşmaq və birləşmək hüququna daxildir....*

**... ictimai birlikdə görüşmək azadlığı:** Dövlətlər Maddə 11 ilə müdafiə olunan bu hüququ təmin etməlidir.

2007-ci ildə məhkəmə *Ramazanova və başqaları Azərbaycana qarşı* işində 11-ci maddənin pozulduğunu bəyan etmişdir. Ərizəçilər “Bakı evsiz və zəif sakinlərinin insan hüquqlarının müdafiəsinə yardım“ Assosiasiyasını yaratmış  və bir neçə dəfə bu təşkilatın qeydiyyatdan keçməsi üçün dövlət orqanlarına müraciət etmişlər. Məhkəmə  Assosiasiyanın qeydiyyata alınmasında yol verilən böyük gecikmə hallarının ərizəcinin birləşmək azadlığı hüququnu pozduğunu qeyd etmişdir.

**... ictimai yerlərdə dinc yığışmaq azadlığı:** dövlətlər dinc yığışmaq azadlığını təmin etməlidir. Nizam-intizamı təmin etmək məqsədilə, qanunda nəzərdə tutulduğu təqdirdə, dövlət orqanlarının ilkin icazəsi legitimdir.

2007-ci ildə Məhkəmə *Mkrtçyan Ermənistana qarşı* işində 11-ci maddənin pozulduğunu bildirmişdir. Armen Mkrtıçyan 2002-ci il may ayında nümayişdə iştirak etdiyi üçün cərimə ödəməyə məhkum edilmişdir. Həmin dövrdə Ermənistanda nümayişlərin təşkilinin idarə edilməsi üçün qanunvericiliyin olmamasını müəyyən edən Məhkəmə ərizəcinin dinc yığışmaq hüququna mudaxilənin qanunda nəzərdə tutulmadığı qənaətinə gəlmişdir.

**Maddə 14:**

***Dərinizin rəngindən, cinsinizdən, dilinizdən, siyasi və ya dini baxışlarınızdan, milli və ya sosial mənşəyinizdən asılı olmayaraq siz konvensiyada təsbit olunmuş hüquqlara maliksiniz.***

**Protokol No 12 – Maddə 1. Ayrı-seçkiliyə qarşı ümumi qadağa:**

***Dərinin rəngi, cins, dil, siyasi və ya dini baxışlarınıza, milli və ya sosial mənşəyinizə görə dövlət hakimiyyət orqanları tərəfindən ayrı-seçkiliyə məruz qalmamalısınız.***

Ayrı-seçkiliyin qadağan olunması insan hüquqları müdafiəsinin əsas hissəsidir. O, bütün insanların ləyaqət və hüquqlarına görə azad və bərabər doğulduğunu bildirən bərabərlik prinsipi ilə sıx bağlıdır.

Konvensiyanın 2005-ci il aprel ayında qüvvəyə minmiş 12 saylı Protokolu (ayrı-seçkiliyə qarşı ümumi qadağa) da ayrı-seçkiliyə qarşı müdafiə təklif edir.

İnsan hüquqlarının müdafiəsinə dair bütün beynəlxalq sənədlərdə ayrı-seçkiliyin qadağan olunmasına rast gəlinir.

# Ayrı-seçkiliyin *qadağan olunması*

***PRAKTIKADA,***
***ayrı-seçkiliyin qadağan olunması tətbiq edilir, məsələn.....***

**... cinsi orientasiyaya əsaslanan ayrı-seçkilik:** Dövlətlər cinsi orientasiyasından asılı olmayaraq hər kəsə bərabər rəftar göstərilməsini təmin etməlidir.

2003-cü ildə Məhkəmə *Karner Avstriyaya qarşı* işdə Maddə 14-ün pozulduğunu bildirmişdir. Zigmund Karner kirayə hüququnun eyni cinsdən olan cütlüklərə ötürülməsi qanunla nəzərdə tutulmadığı üçün Avstriya məhkəməsinin həyat yoldaşının ona kirayə hüququnu verə bilməyəcəyi haqqındakı qərarından şikayət etdi.

**... milli mənşəyinə görə ayrı –seçkilik:** dövlətlər milli mənşəyindən asılı olmayaraq hər kəsə bərabər rəftara zəmanət verməlidir.

2007-ci ildə, Məhkəmə qaraçı uşaqların xüsusi məktəblərdə yerləşdirilməsinə dair *D,H Çex Respublikasına qarşı* işində Maddə 14-ün pozulduğun qeyd etmişdir.

**... sosial mənşəyə görə ayrı-seçkilik:** dövlətlər xüsusilə vərəsəlik məsələlərində mənşəyə əsaslanan bərabərlik prinsipini təmin etməlidirlər.

2004-cü ildə məhkəmə *Pla və Pünserno Andoraya qarşı* işində Maddə 14-ün pozulduğun qeyd etmişdir. Bu iş övladlığa götürülmüş Antoni Pla Pünsernonun anasının vəsiətnaməsində qeyd edildiyi kimi "qanuni və kilsə nikahından anadan olmuş uşaq" olmadığına görə anadan qalan mirasa vərəsə hesab oluna bilməməsinə dair məhkəmə qərarlarına aiddir.

**Metod:** bu çalışmalar axtarışlar tələb edir və buna görə də ev tapşırığı kimi və ya evdə hazırlanan şifahi tapşırıq kimi verilə bilər.

# Ölkəm və AİHM

### *İNSAN HÜQUQLARININ ÖZ TARIXI KONTEKSTINDƏ VERILMƏSI*

İnsan hüquqlarına dair hər ölkənin özünəməxsus tarixi var: məsələn, Macarıstanda təhkimli kəndlilərin üsyanı (1514-1710) 1848-ci ildə təhkimçiliyin qanunvericiliklə qadağan olunmasına və mətbuat azadlığına gətirib çıxarmışdı. Bir az əvvəllərə nəzər salsaq, 1215-ci ildə İngiltərədə, Maqna Karta kral hakimiyyətindən zülmkar şəkildə istifadəni məhdudlaşdırmaq üçün konstitusiya vasitələrinə üz tutmuşdur. Son dövrlərdə Avropada azadlıq və insan hüquqlarının müdafiəsi üçün kampaniya hərəkatlarının çox saylı nümunələrini də göstərmək olar.

Şagirdləri iki qrupa bölərək, onlardan ölkənizdə insan hüquqlarının inkişafına töhfə verən insanlar, nəşrlər, incəsənət, hadisə və hərəkatlar haqqında axtarışlar etmələrini istəyin. Bir və ya bir neçə qrupdan digər ölkələrin bu sahədə təsirlərini öyrənmək istənilə bilər.

Nəticələr müxtəlif yollarla istifadə oluna bilər:

- hər qrup əldə etdiyi nəticələri sinifin qalan hissəsinə təqdim edə bilər
- bəzi şagirdlər öz qrup tədqiqatlarının aspektləri haqqında inşa yaza bilər.

Digər siniflərin də görməsi məqsədi ilə sinifdə insan hüquqları üzrə sərgi təşkil edin.

### *İNSAN HÜQUQLARINI MÜDAFIƏ EDƏN TƏŞKILATLAR*

İnsan hüquqlarının müdafiəsi və təşviqinin təmin edilməsi üçün hər birimiz məsuliyyət daşıyırıq. Dövlətlər insan hüquqlarını müdafiə etməyi öhdələrinə götürmüş olsalar da, Avropa və dünya ölkələrində bir çox qeyri-hökumət təşkilatları (QHT) bu sahədə fəal çalışır və insan hüquqlarını müdafiə, təşviq və inkişaf etdirir.

Şagirdlərdən ölkənizdə bu sahədə fəal olan QHT-ləri tapmalarını istəyin. Onların məqsədləri nədir? Onlar nə iş görürlər? Onların üzvləri kimlərdir? Regionunuzda insan hüquqlarını müdafiə edən başqa fəal təşkilat varmı? İnsan hüquqlarını müdafiə edən QHT-ni sinifdə bu haqda danışmağa dəvət etmək mümkündürmü?

## *İNSAN HÜQUQLARI ÜZRƏ BEYNƏLXALQ ÖHDƏLIKLƏR*

İnsan hüquqları sahəsində ölkəniz və beynəlxalq təşkilatlar arasındakı əlaqələri nəzərdən keçirin.

Qrup şəklində işləyərək şagirdlərdən aşağıdakı mövzular haqqında tədqiqat aparmaları istənilir:

- Ölkəniz nə vaxt və niyə Avropa Şurasına qoşulub?
- Ölkəniz Avropa İnsan Hüquqları Konvensiyasını nə vaxt imzalayıb və ratifikasiya edib və hansı protokollar ratifikasiya edilib?
- Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və AİHK arasındakı əsas fərq nədir?
- Ölkəniz Ümumdünya İnsan Hüquqları Bəyannaməsini nə vaxt imzalayıb?
- Ölkəniz nə vaxt və niyə Birləşmiş Millətlər Təşkilatına qoşulub?
- Ölkəniz BMT-nin insan hüquqları ilə bağlı digər əsas sənədləri imzalayıbmı?
- Ölkəniz insan hüquqları ilə bağlı başqa hansı öhdəlikləri götürüb?

## *ÖLKƏNIZ VƏ AVROPA İNSAN HÜQUQLARI KONVENSİYASI*

Ölkənizdə qüvvədə olan Avropa İnsan Hüquqları Konvensiyasının nəticələri necədir? Ölkə AİHK-nı ratifikasiya edəndə nəticələr olur. Bu fəaliyyət şagirdlərdən aşağıdakı mövzular üzrə tədqiqat aparmağı tələb edir:

- Avropa İnsan Hüquqları Konvensiyası hansı institutlara təsir edir?
- Konvensiyanın təsbit etdiyi hüquqlar və azadlıqlardan ölkədə insanların istifadəsini təmin etməyə hansı institutlar məsuliyyət daşıyır?
- Şagirdlərin bu institutlardan birinə baş çəkməsini təşkil etmək mümkündürmü?
- Ölkənizin konstitusiyasının hansı müddəaları Konvensiyada təsbit olunan hüquqlara bənzəyir?
- Avropa İnsan Hüquqları Məhkəməsində ölkənizdən olan hakimin adı nədir və onun peşə bioqrafiyası necədir?
- Ölkənizdən Avropa İnsan Hüquqları Məhkəməsinə göndərilən işlər varmı? Varsa, nəticələri necə olmuşdur?
- Hüquq pozuntusu qeydə alınanda ölkəniz Avropa İnsan Hüquqları Konvensiyasına uyğun hansı tədbirləri görmüşdür?

Avropa Şurasının insan hüquqlarını müdafiə edən digər bir neçə konvensiya və mexanizmləri vardır. Ölkənizlə aşağıdakılar arasında hansı əlaqələr mövcuddur:

- Avropa İnsan Hüquqları Konvensiyası?
- Avropa Sosial Xartiyası?
- İşgəncənin qarşısının alınması üzrə Konvensiya?
- Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası?
- İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyası?


EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Konkret məsələ üzərində iş –
Öyrənilənlərin təhlili və tətbiqi

**Vaxt:**

30 dəqiqə (mövzunu oxumaq və suallara cavab vermək üçün) və əlavə 20 dəqiqə (düzəliş, verilən mövzu üzrə müzakirələr aparma)

**Metod:**

şagirdləri iki kiçik qrupa bölün (4-5). Onlardan aşağıda verilmiş işin mətnini oxumalarını və sonra məlumat vərəqinin köməyi ilə suallara cavab vermələrini istəyin. Hər qrup cavablarının qısa təqdimatı üçün nümayəndəsini seçir.

# Mari Vilyamz *və onun mətbuatdakı imici*

**Mari Vilyamz *(Mary Williams)* dünya şöhrətli aktrisadır. 2001-ci ildə *Star News* jurnalı onun son çəkildiyi filmdəki rolunu tənqid edən silsilə məqalələr nəşr edib.**

Xanım Vilyamz böhtana görə jurnala qarşı iddia qaldırır. O, məqalələri, eləcə də jurnalın nəşr etdiyi fotolarını tənqid edərək bunun onun özəl həyatına müdaxilə olmasından şikayətlənir.

Ölkəsində (Avropa Şurasının üzv dövləti) məhkəmələr məqalələrin böhtan xarakterli olmasını bildirir və 7000 avro ödənilməsini jurnaldan tələb edir. Amma, həmin məhkəmə xanım Vilyamzın tanınmış aktrisa olduğunu və onun gündəlik həyatını əks etdirən fotoların nəşrini qəbul etməyə hazır olmalı olduğunu qeyd edir.

**Suallar :**

**Mari Vilyamz fotoların nəşri ilə bağlı məhkəmənin qərarından şikayət etmək istəyir.**

O, Avropa İnsan Hüquqları Məhkəməsinə ərizə verə bilərmi? Əgər şikayət edə bilərsə onda ərizəsini Konvensiyanın hansı maddəsinə (maddələrinə) əsaslandırmalıdır?

***Star News* jurnalı ödəməli olduğu pul cərimədən şikayət etmək istəyir.**

O, bu şikayətlə Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edə bilərmi? Əgər şikayət edə bilərsə onda ərizəsini Konvensiyanın hansı maddəsinə (maddələrinə) əsaslandırmalıdır?

**Aşağıdakı məsələ ilə bağlı 20 sətir yazın:**

Jurnalistlərin söz azadlığına dair məhdudiyyətləri varmı?



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Konkret məsələ üzərində iş –
Öyrənilənlərin təhlili və tətbiqi

**Vaxt:**

30 dəqiqə (mövzunu oxumaq və suallara cavab vermək üçün) və əlavə 20 dəqiqə (düzəliş, verilən mövzu üzrə müzakirələr aparma)

**Metod:**

şagirdləri iki kiçik qrupa bölün (4-5). Onlardan aşağıda verilmiş işin mətnini oxumalarını və sonra məlumat vərəqinin köməyi ilə suallara cavab vermələrini istəyin. Hər qrup cavablarının qısa təqdimatı üçün nümayəndəsini seçir.

# Dinc nümayiş

**Şəhərin son yaşıl parkının yerində avtomobil dayanacağı tikiləcəkdir. On yerli sakin onların istirahət etmələri və uşaqların oynaması üçün yer lazım olduğunu deyərək parkda dinc nümayiş təşkil edir.**

Polis gəlir və onlara nümayiş etməyə icazə verilmədiyini və evlərinə getmələrini bildirir. Numayişcilər yerə oturur və getməkdən imtina edirlər. Polis onları zorla aparır və hətta onlardan bəziləri yaralanır.

**Suallar :**

- Nümayişçilərin əsas hüquqları pozulmuşdurmu? Hansı hüquqlar pozulmuşdur?
- Nümayişçilər Avropa İnsan Hüquqları Məhkəməsinə birgə ərizə ilə şikayət edə bilərmi? Ərizəni göndərmək üçün hansı tələblərə riayət edilməli olunduğunu söyləyin?
- Onlar ərizələrini Konvensiyanın hansı maddəsinə (maddələrinə) əsaslandıra bilərlər?



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Konkret məsələ üzərində iş –
Öyrənilənlərin təhlili və tətbiqi

**Vaxt:**

30 dəqiqə (mövzunu oxumaq və suallara cavab vermək üçün) və əlavə 20 dəqiqə (düzəliş, verilən mövzu üzrə müzakirələr aparma)

**Metod:**

şagirdləri iki kiçik qrupa bölün (4-5). Onlardan aşağıda verilmiş işin mətnini oxumalarını və sonra məlumat vərəqinin köməyi ilə suallara cavab vermələrini istəyin. Hər qrup cavablarının qısa təqdimatı üçün nümayəndəsini seçir.

# Lorenzo, *boşanması və uşaqları*

**12 il nikahdan sonra Lorenzo boşanmaq üçün ərizə verir. Onun həyat yoldaşı etiraz etmir, ancaq məhkəmənin boşanma haqqında hökm verməsi bir neçə il çəkir.**

Lorenzo iki uşağı ilə əlaqə saxlamaq istəyir, amma ölkədəki qanun boşanma prosesi başa catanadək buna icazə vermir.

**Suallar :**

- Bu məsələni həll etmək üçün Lorenzo Konvensiyanın hansı maddəsi ilə müraciət etməlidir?
- Lorenzonun Avropa İnsan Hüquqları Məhkəməsinə göndərmək qərarına gəldiyi ərizənin müxtəlif etaplarını təsvir edin.

Konkret məsələ üzərində iş –
Öyrənilənlərin təhlili və tətbiqi

**Vaxt:**

30 dəqiqə (mövzunu oxumaq və suallara cavab vermək üçün) və əlavə 20 dəqiqə (düzəliş, verilən mövzu üzrə müzakirələr aparma)

**Metod:**

şagirdləri iki kiçik qrupa bölün (4-5). Onlardan aşağıda verilmiş işin mətnini oxumalarını və sonra məlumat vərəqinin köməyi ilə suallara cavab vermələrini istəyin. Hər qrup cavablarının qısa təqdimatı üçün nümayəndəsini seçir.

# Roberto *və məhkumluq*

**1996-cı ildə Roberto bir sıra qarət və maşın oğurluğuna görə 20 il həbs cəzasına məhkum edilib. Məhkəmənin yekun qərarından sonra cəzasını çəkmək üçün dövlət həbsxanaya göndərilməzdən öncə altı ay müddətində həbsdə qalır.**

Roberto həbsdə saxlanmasının qeyri-qanuni olmasından şikayətlənir. Üstəlik, saxlanma şəraitinin pis olduğunu və ləyaqətini alçaltdığını bildirdi. Ona ünvanlanan məktubların açıldığını və həbsxananın rəhbərliyi tərəfindən oxunduğunu söyləyir.

**Suallar :**

- Robertonun əsas hüquqları pozulubmu? Əgər cavab müsbətdirsə o zaman hansı hüquqları pozulub?
- Roberto Avropa İnsan Hüquqları Konvensiyasının hansı maddələrinə əsaslanaraq şikayət edə bilər?
- Robertonun vəkili onun saxlanma şəraiti ilə bağlı hansı meyarlara istinad edə bilər?



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Konkret məsələ üzərində iş –
Öyrənilənlərin təhlili və tətbiqi

**Vaxt:**

30 dəqiqə (mövzunu oxumaq və suallara cavab vermək üçün) və əlavə 20 dəqiqə (düzəliş, verilən mövzu üzrə müzakirələr aparma),

**Metod:**

şagirdləri iki kiçik qrupa bölün (4-5). Onlardan aşağıda verilmiş işin mətnini oxumalarını və sonra məlumat vərəqinin köməyi ilə suallara cavab vermələrini istəyin. Hər qrup cavablarının qısa təqdimatı üçün nümayəndəsini seçir.

# İvan və onun *deportasiya perspektivi*

**İvan qonşu ölkədə (Avopa Şurasınmn üzv dövləti) polis tətərfindən həbs edilir. Sənədləri qaydasında olmadığı üçün məhkəmə onu mənşə ölkəsinə deportasiya etmək qərarını qəbul edir.**

İvan onun işi ilə bağlı çıxarılmış qərarı şikayət etmək istəyir. O, gəldiyi ölkədə ayrı-seckiliyə məruz qalan milli azlıqdan olduğunu və ölkəsinə qayıtdığı təqdirdə rəsmi orqanlar və ya üsyançılar tərəfindən işgəncəyə məruz qalmaı və ya öldürülülmə ehtimalının olduğunu söyləyir.

**Suallar :**

- Ivan onu öz mənşə ölkəsinə qaytarmaqla bağlı qonşu ölkədə çıxarılmış qərardan Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət edə bilərmi? O, ərizəsini Konvensiyanın hansı maddəsinə (maddələrinə) əsaslandıra bilər?
- Hansı müddətə öz mənşə ölkəsinə qarşı şikayət verə bilər?



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Konkret məsələ üzərində iş –
Fikir mübadiləsi, insan hüquqlarına dair müzakirələr

**Vaxt:**

1 – 1½ saat.

**Metod:**

Sinifi 5 və ya 6 nəfərdən ibarət qruplara bölün və aşağıdakı senarionu onlara oxuyun. Sonra aşağıdakı sualları verərək müzakirələrə başlayın.

# Xəyali ölkə

*"İndiyə qədər heç kimin yaşamadığı, heç bir qanunun və qaydanın olmadığı yeni bir olkə kəşf etdiyinizi təsəvvür edin. Siz və qrupunuzun digər üzvləri bu torpağın sakinlərisiniz. Bu yeni torpaqda hansı sosial mövqeyə malik olacağınızı bilmirsiniz."*

Fərdi şəkildə, hər bir şagird bu yeni ölkədə hər kəs üçün təmin olunmalı olan üç insan hüququnu qeyd etməlidir. Şagirdlərdən öz qrupları daxilində bu siyahını bölüşmələrini və müzakirə etmələrini xahiş edin. Daha sonra qrup vacib olduqlarını düşündükləri 10 insan hüququndan ibarət siyahını tərtib etməlidir. Sonra qrup yeni ölkəyə ad verir və böyük kağız parçası üzərində insan hüquqları siyahısı ilə birgə ölkənin adını yazır.

Hər qrup öz siyahısını digər qruplara təqdim edir.

Bundan sonra, sinif siyahısında hər hüquqla bağlı qeydlər edin. Əgər hüquqlar təkrar olunarsa üstündən xətt çəkin.

Bütün qruplar öz təqdimatların etdikdən sonra sinifdən eyni və ya bir-birinə zidd olan hüquqları müəyyən etmələrini istəyin:

- Sinifin tərtib etdiyi hüquqlar siyahısını səmərələşdirmək olarmı? Oxşar hüquqları birlikdə qruplaşdırmaq olarmı?
- Bu siyahı reallığa nə qədər yaxındır?

Aşağıdakı mövzular üzrə digər suallar verilə bilər:

- Bu müddət ərzində hansı hüquqlarla bağlı vacib dəyişiklik oldu?
- Siyahıya əlavə etmək istədiyiniz hər hansı başqa hüquqlar varmı?
- İnsan hüquqları universaldırmı?
- Sizin regionda fəal insan hüquqları təşkilatları varmı?
- Onların məqsədiləri nədir? Onlar nə edirlər? Onların üzvləri kimlərdir?



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Sınaq !

## Görək nə qədər bilirsiniz?

1. Avropa İnsan Hüquqları Konvensiyası nə vaxt qəbul edilmiişdir?
    - 1948
    - 1950
    - 1959

2. Məhkəmədə hər ölkədən neçə hakim var?
    - bir
    - ölkədən asılıdır
    - işdən asılıdır

3. Kimlər Məhkəməyə müraciət edə bilər?
    - Avropa İttifaqı vətəndaşları
    - Avropa Şurasının üzv dövlətlərinin vətəndaşları
    - vətəndaşlığından asılı olmayaraq hər kəs

4. Bütün daxili müdafiə vasitələri tükəndikdən sonra hansı müddət ərzində Məhkəməyə müraciət etmək olar?
    - sonuncu məhkəmə qərarının çıxarıldığı tarixdən sonrakı altı ay müddətində
    - faktların baş verməsindən sonrakı 10 il müddətində
    - sonuncu məhkəmə qərarının çıxarılmasından sonrakı ildə

5. Məhkəmə qərarının icrasına nəzarətə hansı orqan məsuliyyət daşıyır?
    - Avropa İnsan Hüquqları Məhkəməsi
    - İnsan Hüquqları üzrə Komissar
    - Nazirlər Komitəsi

6. Hansı ölkə AİHK-nı imzalamayıb və ratifikasiya etməyib?
    - Türkiyə
    - Belarusiya
    - İsveçrə

7. Aşağıdakı hansı sahə ilə bağlı artıq Məhkəmə qərar verib?
    - milli müdafiə
    - kimyəvi çirklənmə təhlükəsi
    - bioetika

8. Avropa İttifaqının üzvü olan neçə ölkə AİHK-nı imzalamayıb?
    - 0
    - 1
    - 9

9. Konvensiyanın müddəalarının pozulması ilə bağlı verilmiş qərarın icrasına kim məsulliyyət daşıyır?
    - Dövlətlər
    - Nazirlər Komitəsi
    - Məhkəmə

10. Ərizələr Məhkəməyə neçə dildə göndərilə bilər?
    - 2
    - 47
    - Üzv dövlətlərin hər birinin rəsmi dilində



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Sinağın cavabları :

1. 1950
2. bir hakim
3. vətəndaşlığından sılı olmayaraq hər kəs
4. son məhkəmə qərarından sonrakı 6 ay müddətində
5. Nazirlər Komitəsi
6. Belarusiya
7. kimyəvi çirklənmə təhlükəsi
8. 0
9. Dövlətlər
10. Üzv dövlətlərin hər birinin rəsmi dilində

# Avropa Şurasının İnsan Huquqlarını müdafiə edən *digər alətləri*

İllər ərzində Avropa Şurası Avropa İnsan Hüquqları Konvensiyası ilə təmin olunmuş hüquqlara əsaslanan bir sıra digər mətnlər də hazırlamışdır.

**Avropa Sosial Xartiyası**

Avropa Sosial Xartiyası (1961), onun Əlavə Protokolu (1988) və yenidən baxılmış Xartiya (1996) əsas sosial hüquqların qorunmasını təmin edir. Söhbət ilk növbədə iş (ayrı-seçkiliyin olmaması, həmkarlar ittifaqı hüququ, sosial müdafiə hüququ), yoxsulluq və sosial təcrid olmadan müdafiə və layiqli yaşam şəraitindən gedir.

**İşgəncələrin qarşısının alınması üzrə Avropa Konvensiyası**

Avropa Şurasının İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyası 1987-ci ildə qəbul edilmişdir. Bu konvensiya İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) tərtib etdiyi Avropa İnsan Hüquqları Konvensiyanın təmin etdiyi hüquqların müdafiəsinə əlavədir və məhbuslarla rəftarı görmək üçün onların saxlanıldığı yerlərə baş çəkən müstəqil və qərəzsiz ekspertlər tərəfindən hazırlanmışdır.

**Milli azlıqların hüquqlarının müdafiəsinə dair Çərçivə Konvensiyası**

Bu milli azlıqların hüquqlarını ümumi şəkildə müdafiə edən ilk çoxtərəfli hüquqi sənəddir. Onu ratifikasiya edən dövlətlər tərəfindən riayət edilmək üçün prinsiplər müəyyən edir. Bu prinsiplərə hüquq qarşısında bərabərlik, mədəniyyətləri qorumaq və inkişaf etdirmək, milli kimlikləri, dinləri, milli azlıqların dillərini və ənənələrini qoruyub saxlamaq daxildir.

**Irqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyası (ECRI)**

1993-cü ildə təsis edilən bu Komissiya Avropa miqyasında irqçiliyin bütün formalarına, ksenofobiyaya, anti-semitizmə və dözümsüzlüyə qarşı mübarizəni gücləndirir. Bu sahədə milli və beynəlxalq səviyyədə atılmış addımların səmərəliliyini qiymətləndirir və bu fəaliyyəti bütün səviyyələrdə təşviq edir.

**Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası**

Konvensiya əsasən insan alveri qurbanlarının və onların hüquqlarının müdafiəsinə yönəlmiş hərtərəfli beynəlxalq hüquqi sənəddir. O, həmçinin insan alverinin qarşısının alınmasını və səmərəli istintaqın təmin edilməsini nəzərdə tutur. Bu Konvensiya qurbanların (qadınlar, kişilər, uşaqlar) kim olmasından və istismar formalarından (cinsi istismar və ya məcburi əmək və ya xidmətlər və s) asılı olmayaraq bütün alver tiplərinə tətbiq edilir.

**www.human-rights-convention.org**
**www.echr.coe.int**
**www.coe.int/socialcharter**
**www.cpt.coe.int**
**www.coe.int/monitoring**
**www.coe.int/ECRI**
**www.coe.int/commissioner**



EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Graphic design: anne habermacher / PREMS 238413 AZE

## www.coe.int

## www.human-rights-convention.org

**Əlavə məlumat üçün aşağıdakı insan hüquqları saytlarına müraciət edin:**

Avropa Şurası: www.coe.int
Avropa İnsan Hüquqları Məhkəməsi: www.echr.coe.int
Məhkəmə hökmünün icra edilməsi: www.coe.int/execution

Avropa Şurasının nəşrləri: book.coe.int
Avropa Şurası sənədləri: edoc.coe.int

Facebook: www.facebook.com/pages/Council-of-Europe/42276542714
Twitter: http://twitter.com/councilofeurope
Flickr: www.flickr.com/people/councilofeurope/

Aprel 2014